# “Bələdiyyələrin fəaliyyətində qanunçuluğun təmin edilməsi: mövcud vəziyyət və qarşıda duran vəzifələr” mövzusunda konfrans

Dekabrın 18-də Bakıda “Bələdiyyələrin fəaliyyətində qanunçuluğun təmin edilməsi: mövcud vəziyyət və qarşıda duran vəzifələr” mövzusunda konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbiri giriş sözü ilə açan Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinin rəisi Zahir Əlizadə ölkəmizdə bələdiyyələrlə işin təşkili sahəsində görülən tədbirlər barədə məlumat verib.

Zahir Əlizadə bildirib ki, ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan və qəbul olunan Konstitusiyamızda yerli özünüidarəetmə orqanlarının statusunun əsaslarının təsbit olunması ölkəmizdə bələdiyyələrin təşəkkül tapmasına gətirib çıxarıb. Prezident İlham Əliyev cəmiyyətin səmərəli idarə edilməsində yerli özünüidarəetmənin rolunu yüksək qiymətləndirir, onların fəaliyyətində qanunçuluğun təmin olunmasının zəruriliyini önə çəkir, vaxtaşırı olaraq bələdiyyələrin fəaliyyəti ilə bağlı fikirlərini söyləyir. Ölkəmizin sosial-iqtisadi inkişafı məsələləri ilə bağlı Prezidentin imzaladığı sənədlərdə dövlət orqanları ilə yanaşı, bələdiyyələrin də iştirakı nəzərdə tutulur, onlara müvafiq tövsiyələr verilir.

Qeyd olunmalıdır ki, Konstitusiyanın qəbulundan ötən dövr ərzində bələdiyyələrin fəaliyyətinin tənzimlənməsi və getdikcə təkmilləşdirilməsi məqsədilə Milli Məclis tərəfindən 119 sənəd qəbul olunub.

“Konfransın mövzusundan da göründüyü kimi, məqsəd bələdiyyələrin inkişafında, cəmiyyətdəki yerinin və nüfuzunun möhkəmləndirilməsində başlıca vasitə olan qanunçuluğun təmin edilməsinin vacibliyinə diqqətin yönəldilməsidir”, - deyən Z.Əlizadə bildirib ki, Bələdiyyələrlə İş Mərkəzi tərəfindən bələdiyyələrə metodoloji yardımın göstərilməsi, onların maarifləndirilməsi məqsədilə il ərzində çoxlu sayda seminarlar keçirilib, bu tədbirlərdə xeyli bələdiyyə üzvü və qulluqçusu iştirak edib.

“Bununla belə, sirr deyil ki, bələdiyyələrin fəaliyyətində haqlı şikayətlərə şərait yaradan nöqsanlara, bir sıra hallarda kobud qanun pozuntularına, o cümlədən korrupsiya hallarına da yol verilir. Prezident İlham Əliyevin “Dövlət və bələdiyyə əmlakının və vəsaitlərinin idarə olunması sahəsində korrupsiya ilə əlaqədar hüquqpozmalara qarşı mübarizənin gücləndirilməsi haqqında” fərmanında bələdiyyələr tərəfindən qanunvericiliyin tələblərinə riayət edilməsinə nəzarətin artırılması, onların fəaliyyətinə inzibati nəzarətin gücləndirilməsi, onların fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi zamanı cinayət əlaməti olan korrupsiya ilə əlaqədar hüquqpozmalar aşkar edildikdə müvafiq sənədlərin dərhal Baş Prokurorluğa göndərilməsi barədə Ədliyyə Nazirliyinə tapşırıq verilib.

Sonra konfransda Bələdiyyələrlə İş Mərkəzinin İnzibati nəzarət idarəsinin rəisi Ruslan Osmanlının “İnzibati nəzarət icraatı zamanı aşkar olunan nöqsanlar və onların səbəbləri” mövzusunda məruzəsi dinlənildi.

Məruzədə bildirilib ki, ölkəmizdə bələdiyyələrin fəaliyyətə başlamasından keçən 17 il ərzində bələdiyyələrin fəaliyyətini tənzimləyən qanunvericilik aktları xeyli təkmilləşdirilib, çoxsaylı maarifləndirmə işləri aparılıb. Bələdiyyə aktlarının ekspertizası və müraciətlər üzrə araşdırma zamanı bələdiyyələrə müxtəlif məsələlər əhatə edən 3000-ə yaxın tövsiyə göndərilib. Onlar yerli büdcənin müzakirəsi, aktların inzibati nəzarət orqanına vaxtında təqdim edilməsi, protokolların düzgün tərtibi, bələdiyyə torpaqlarının idarə olunması, bələdiyyə üzvlərinin seçicilər qarşısında hesabat verməsi, yerli vergilərin yığılması və digər məsələlərlə bağlı olub. Bu tövsiyələrdə qanunvericiliyin tələbləri izah edilib, yol verilmiş nöqsanların, qanun pozuntularının aradan qaldırılması və qarşısının alınmasının zəruriliyi göstərilib.

Diqqətə çatdırılıb ki, bir sıra bələdiyyələr tərəfindən aktlar inzibati nəzarət qaydasında baxılması üçün ədliyyə orqanlarına vaxtında təqdim edilmir və yaxud qanunla müəyyən olunmuş müddətdən gec təqdim olunur. Bu isə özlüyündə inzibati məsuliyyət yaradır. Cari ilin ötən dövrü ərzində belə pozuntuya yol vermiş 70-dən çox bələdiyyə sədri barəsində inzibati xəta haqqında protokollar tərtib edilərək müvafiq məhkəmələrə göndərilib.

Qanunvericiliyə əsasən bələdiyyə büdcəsindən pul vəsaiti yalnız bələdiyyə iclasının qərarı ilə ayrılır və bu qərarda həmin vəsaitin təyinatı, məqsədi və dəqiq miqdarı göstərilməlidir. Lakin bəzi bələdiyyələr tərəfindən pul vəsaitləri xərcləndikdən sonra yerli büdcədən silinməsi barədə qərarlar qəbul edilir, ayrılmış maliyyə vəsaitlərinin məbləği qərarda göstərilmir.

Cari ilin ötən dövrü ərzində inzibati nəzarət icraatı qaydasında aparılmış araşdırmalar nəticəsində 24 bələdiyyənin fəaliyyətində daha ciddi hüquq pozuntuları, o cümlədən maliyyə əyintiləri aşkar edilərək toplanmış materiallar hüquqi qiymət verilməsi üçün istintaq orqanlarına göndərilib.

Bir daha diqqətə çatdırılıb ki, bələdiyyələrdə qanun pozuntularının qarşısının alınması, qanunçuluğun gücləndirilməsi məqsədilə tədbirlər ardıcıl surətdə davam etdirilir.

Konfransda çıxış edən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri üzrə şöbəsinin bələdiyyələrlə iş sektorunun müdiri Emin Eyvazov bildirib ki, Azərbaycanda yerli özünüidarəetmənin inkişafı sahəsində atılan addımlar dövlət başçısı İlham Əliyevin demokratik təsisatların genişləndirilməsi istiqamətində uğurla apardığı siyasətin məntiqi nəticəsidir.

Sektor müdiri qeyd edib ki, bugünkü tədbir bələdiyyələrin fəaliyyətinin səmərəliliyinin artırılması baxımından çox əhəmiyyətlidir. O deyib: “Hesab edirik ki, bələdiyyələrin fəaliyyətində qanunçuluğun təmin edilməsində qarşıda duran vəzifələrin müəyyənləşdirilməsi və onların icrası prosesində mövcud vəziyyətin belə bir geniş tərkibdə müzakirəsinə və perspektivlərin müəyyənləşdirilməsinə zərurət vardır.

Azərbaycanda bələdiyyələrin fəaliyyəti zamanı yaranan problemlərin həlli və gələcək inkişafı üçün lazımi tədbirlərin görülməsi aidiyyəti dövlət orqanlarının daim diqqət mərkəzindədir. Bu konfransda da bələdiyyələrin fəaliyyətində qanunvericiliyin tətbiqi zamanı aşkarlanan nöqsanların, onların aradan qaldırılması yollarının və digər həlli vacib məsələlərin müzakirəsi nəzərdə tutulub”.

Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiq edilmiş “Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı”ndan irəli gələn bir sıra məsələlərin həllində bələdiyyələrə də bəzi vəzifələr tövsiyə edilib. Bunlar yerli vergilər Mərkəzi Bankın Kütləvi Ödənişlər üzrə Mərkəzləşdirilmiş İnformasiya Sistemi (KÖMİS) və elektron terminallar vasitəsilə həyata keçirilməsinin təmin edilməsi, bələdiyyə qulluğuna qəbul qaydalarının təkmilləşdirilməsi, mərkəzləşdirilmiş vahid elektron resursun yaradılması üzrə tədbirlərin görülməsi, bələdiyyə qulluqçularının etik davranış qaydalarının hazırlanması, hüquqi maarifləndirmənin aparılması və bu barədə ictimaiyyətin məlumatlandırılması və digər məsələlərdir.

Bələdiyyələr tərəfindən yerli əhəmiyyətli məsələlərin tam həllinə nail olunması, vətəndaşların sosial sifarişlərinin yerinə yetirilməsi, sosialyönümlü iri layihələrin həyata keçirilməsi üçün onlar zəruri maliyyə resurslarına malik olmalıdırlar. Reallıqda isə əksər bələdiyyələrin mövcud büdcələri nəinki layihələrin həyata keçirilməsinə, hətta cari fəaliyyətinin təşkilinə belə çatmır. Bunun əsas səbəbi isə bələdiyyələrin əsas gəlir mənbəyi olan yerli vergi və ödənişlərin yığılması səviyyəsinin aşağı olmasıdır.

Bələdiyyələrin maliyyə potensialının gücləndirilməsi, yerli (bələdiyyə) vergi və ödənişlərin yığılması işinin səmərəli təşkili məqsədilə 2016-cı ilin əvvəlindən başlayaraq, yerli vergi və ödənişlərin toplanması, tədiyəçilərlə münasibətlərin düzgün qurulması, gəlir və xərclər sahəsində şəffaflığın təmin olunması üçün Prezident Administrasiyasının dəstəyi ilə Azərbaycan Şəhər, Qəsəbə və Kənd Bələdiyyələrinin Milli Assosiasiyaları tərəfindən Bələdiyyələrin Avtomatlaşdırılmış Məlumat Sistemi (BAMS) proqramı hazırlanıb və ötən ilin oktyabr ayından respublikanın bütün bələdiyyələrində uğurla tətbiq edilməyə başlanılıb. Bununla bağlı Milli Assosiasiyaların əməkdaşları regional zona seminarları keçirib və həmin tədbirlər mütəmadi olaraq davam etdirilir.

Prezident Administrasiyasının rəsmisinin dediyinə görə, “BAMS vasitəsilə aparılan 9 ayın təhlilləri göstərir ki, bəzi bələdiyyələr ötən illərdə olduğu kimi vergi və ödənişlərin yığılması işini nəinki təkmilləşdirə bilmir, əksinə, əvvəlki illərdə olan sistemsizliyi və bir çox hallarda qanuna zidd olaraq bilərəkdən vergi obyektlərinin uçotdan yayındırma hallarını davam etdirir. İstər statistik, istərsə də Bələdiyyələrin Avtomatlaşdırılmış Məlumat Sistemindəki məlumatlardan aydın olur ki, vergilərin hesablanmasında yeni qanunvericiliyin tətbiqindən sonra bir çox bələdiyyələrin yerli büdcəsində əsaslı artım baş verib. Əldə olunan artım yeni qaydaların tətbiqi ilə yanaşı, həmçinin vergi və ödəniş obyektlərinin qeydə alınması və yığım prosesinin düzgün təşkili sahəsində mümkün olub.

Bildirilib ki, bələdiyyə sədrləri əhali arasında vergilərin ödənilməsi ilə bağlı geniş maarifləndirmə və təbliğat işi aparmalı, seçiciləri qarşısında hesabat yığıncaqlarını daim keçirməli, vergilərdən əldə olunacaq gəlirlərin həmin vergiləri ödəyən şəxsləri narahat edən yerli problemlərin həllinə yönəldiləcəyini bildirməlidirlər. Bir sözlə, sakinlər ilə təmas qurmadan, onlara vergi ödəmək mədəniyyəti aşılamadan, bələdiyyənin fəaliyyətini təbliğ etmədən vergiləri tam həcmdə yığmaq mümkün olmayacaq.

Bələdiyyə büdcələrinə yerli vergi və ödənişlərdən daxil olmuş vəsaitlər barədə müqayisəli məlumatları diqqətə çatdıran E.Eyvazov bildirib ki, vergi və ödənişlər üzrə gəlirlər 2016-cı ilin doqquz ayında 9.659.300 manat idisə, 2017-ci ilin eyni dövründə bu rəqəm 11.168.000 manat olub.

Sonra Azərbaycan Şəhər Bələdiyyələrinin Milli Assosiasiyasının, Bakı şəhəri Nərimanov bələdiyyəsinin sədri Təhmiraz Tağıyev, Bakı şəhəri Nəsimi bələdiyyəsinin sədri Nazim Qaraxanov, Rəsulzadə bələdiyyəsinin sədri Hümmət Hüseynov, Biləcəri bələdiyyəsinin sədri Hikmət Quliyev və Bakıxanov bələdiyyəsinin sədri Ramiz Nəsibov çıxış edərək rəhbərlik etdikləri yerli özünüidarəetmə orqanlarında görülən işlər və mövcud problemlər barədə məlumat veriblər.

Konfransda çıxış edən Milli Məclisin deputatı Rüstəm Xəlilov ölkəmizdə bələdiyyələrin inkişafı üçün bütün lazımi imkanların yaradıldığını deyib. “Bu inkişaf üçün lazım olan ən başlıca məsələ maliyyə vəsaitidir. Hər il dövlətimiz tərəfindən bununla bağlı 5 milyon manat vəsait ayrılır. Bu gün ölkəmizdə kifayət qədər bələdiyyələr var ki, bu vəsaitdən çox səmərəli istifadə edirlər, müxtəlif müəssisələr yaradırlar. Ancaq bəzi bələdiyyələr ciddi qanun pozuntularına və nöqsanlara yol verirlər. Ümid edirəm ki, gələcəkdə bu cür qanun pozuntularının qarşısı alınacaq və belə hallara bir daha rast gəlinməyəcək”, - deyə deputat vurğulayıb.

Milli Məclisin deputatı Kamran Bayramov da çıxışında bu cür tədbirlərin qarşıda duran vəzifələrin, nöqsanların aradan qaldırılması yollarının müzakirəsi baxımından vacibliyini diqqətə çatdırıb. Azərbaycanda həm dövlət, həm də Milli Məclis tərəfindən bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində vacib addımların atıldığını qeyd edən K.Bayramov bildirib ki, artıq bu sahədə bəzi nailiyyətlər də var. Ancaq nəticələr daha da yaxşı olmalıdır. Ən başlıca məsələlərdən biri də bələdiyyələrin qanuni fəaliyyətlərinin təmin olunmasıdır. Bütün bələdiyyələrin fəaliyyətlərinin qanuni təşkili üçün maarifləndirmə tədbirlərinin önəmini qeyd edən deputat bildirib ki, onlara bu sahədə qəbul olunan sərəncamların, fərmanların, qanunların mahiyyəti ilə bağlı məlumatlar verilməlidir. O, həmçinin bildirib ki, bələdiyyələr mütəmadi qaydada fəaliyyətləri ilə bağlı ictimaiyyəti məlumatlandırmalıdırlar.

Milli Məclisin Regional məsələlər komitəsinin sədri Arif Rəhimzadə çıxışında qeyd edib ki, yerli özünüidarəetmə Azərbaycanda dövlət idarəetmə sisteminin çox vacib və mühüm bir sahəsini əhatə edir. Yerli özünüidarəetmə sisteminin daha da inkişafı üçün ciddi addımlar atılıb və bəzi nəticələr də var. Bələdiyyələrdə Avtomatlaşdırılmış Məlumat Sisteminin yaradılması çox vacib məsələdir. Bu sistemdən istifadə ölkə ərazisindəki bütün bələdiyyələr üçün çox vacibdir.

Konfransda mövzu ilə bağlı müzakirələr aparılıb, bəzi təkliflər səsləndirilib.

Qeyd edək ki, Bələdiyyələrlə İş Mərkəzi tərəfindən bir sıra metodiki kitablar hazırlanıb və bələdiyyələrin istifadəsinə verilib.

Azərbaycan.- 2017.-19 dekabr.- S.4.